Qeyri-rəsmi tərcümə

**Panama Respublikası**

**7 avqust 2013-cü il tarixli 4 saylı**

**"Ermənistan qüvvələri tərəfindən Azərbaycan ərazisinin işğalı barədə" Qətnamə**

**Milli Assambleya**

**Öz konstitusional və hüquqi səlahiyyətlərindən istifadə edərək nəzərə alır:**

1992-ci ildə Azərbaycan Respublikasına məxsus Dağlıq-Qarabağ ərazisinin və bu region ətrafındakı yeddi ətraf rayonun Ermənistan tərəfindən hərbi işğalına başlanmışdır;

Panama Respublikası beynəlxalq sülh qaydasının təmini və münaqişələrin həllinin sülh yolu ilə ölçülməsi üçün səylər göstərməsi ilə tanınır;

BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş 822, 853, 874 və 884 saylı qətnamələr döyüş əməliyyatlarının dayandırılmasını, qurbanlara diqqətin göstərilməsini və Azərbaycan Respublikasının ərazisinin Ermənistan Respublikası tərəfindən işğalı ilə yaranan münaqişənin həlli yolu kimi dialoqu təşviq etmişdir;

Qonşu Ermənistan Respublikası tərəfindən Azərbaycan Respublikasına məxsus Dağlıq-Qarabağ ərazisinin və ətraf yeddi ətraf rayonun işğalına dərhal son qoyulması çox vacibdir.

**Qərara aldı:**

1. Azərbaycan Respublikasına məxsus Dağlıq-Qarabağ ərazisinin və bu regionun ətrafındakı yeddi rayonun Ermənistan tərəfindən hərbi işğalı bir daha pislənir.
2. Münaqişənin hərbi mərhələsi zamanı və ondan sonra, xüsusən də 1992-ci ildə baş verən Xocalı soyqırımı zamanı Azərbaycan Respublikasının sakinlərinə qarşı törədilən insan hüquqlarının ciddi şəkildə pozulması bir daha qınanır.
3. Ermənistan Respublikası BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrini icra etməyə çağırılır.

**Hüquqi əsaslar:** Milli Assambleyanın Daxili Reqlamentinin Orqanik Aktının 246-cı maddəsi.

DƏRC VƏ ICRA.

İki min on üçüncü ilin yeddi avqust tarixində Panama şəhərində "Justo Arosemena" sarayında qəbul edilmişdir.

**Sədr**

**Sergio R. Galvez Evers**

**Baş Katib vəzifələrini icra edən**

**Roberto A. Proll Nnunez**